*"Ordunun qüdrətini, onun döyüş qabiliyyətini, qələbə iradəsini təşkil edən döyüşçülərin vətənpərvərlik hissidir. Hər bir əsgər, zabit, döyüşçü vətənpərvərlik hissini, Vətənə, torpağa, müstəqil dövlətimizə, xalqımıza sədaqət hissini hər şeydən üstün tutmalıdır".*

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZIRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır | 9 avqust 2014-cü il № 61 (1878) | Qiyməti 25 qəpik


## Ali Baş Komandan İlham ƏLİYEV:

# Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir

***Son günlər Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmiş Azərbaycan ərazilərindəki təmas xəttində və Ermənistanla həmsərhəd olan qərb rayonlarımızda düşmənin diversiya qrupları təxribatlar törətdilər. Həmin insidentlərin qarşısını cəsur Azərbaycan döyüşçüləri cəsarət və soyuqqanlılıqla aldılar. Düzdür, hiyləgər və məkrli düşmənin törətdiyi bu qarşıdurmalar nəticəsində bir-birindən cəsur oğullar itirsək də, erməni zinvorları da ağır itkilər verdi.***



Həmin hadisələri təhlil etdikdə bir sıra maraqlı məqamlar üzə çıxır. Hər şeydən öncə diqqəti çəkən odur ki, düşmənin bu təxribatları törətməsi əslində Azərbaycan Ordusunun, əsgərimizin nəyə qadir olduğunu öyrənmək niyyətindən irəli gəlir. Amma silahlı qarşıdurmalar bir daha göstərdi ki, Azərbaycan Ordusu 20 il öncəki başıpozuq dəstələrdən ibarət deyil! Bu gün qüdrətli Azərbaycan dövləti və onun güclü Silahlı Qüvvələri var. Azərbaycan oğulları düşmənin nəinki bu cür rəzil hərəkətlərinin qarşısını amansızlıqla almağa qadirdir, eyni zamanda ermənilərin 20 ildən artıqdır ki, havadarlarının bilavasitə dəstəyilə zəbt etdiyi və bu günə qədər işğal altında saxladığı torpaqları azad etməyə hazırdır.

Maraqlı cəhətlərdən biri də odur ki, ölkəmizin hər yerində düşmənin vəhşilikləri ciddi etiraz doğurdu. Sadə insanlar düşmənə qarşı vuruşmağa hazır olduqlarını, bundan ötrü ordu sıralarına qatılmaq istəklərini nümayiş etdirdilər.

Mən özüm belə hadisələrin canlı şahidiyəm. Həmin insident zamanı Ağdam rayonunda olarkən onlarla gənc Gəncə şəhərindən bu bölgəyə üz tutmuş, işğal altındakı torpaqların azad edilməsi naminə vuruşmağa, bundan ötrü ordu sıralarına yazılmağa hazır olduqlarını söyləyirdilər.

Vətəndaşlarımızın döyüş ovqatını Xocavənd rayonunda şəhid olmuş Sənan Quliyevin məzarı başına toplaşmış yüzlərlə sakinin əhval-ruhiyyəsi də açıq-aydın göstərirdi.

Bu günlərdə həmçinin Ermənistanda dövlət rəsmilərinin saxta bəyanatlarını nəzərə almasaq, insanların təlaş içərisində olduğu, qorxu içində yaşadığı üzə çıxdı.

İrəvan sakinləri təmas xətlərində baş vermiş qarşıdurmadan sonra küçələrə çıxaraq müharibə əleyhinə yürüş keçiriblər. Yürüş İrəvanın Respublika meydanından Azadlıq meydanına qədər davam edib.

Ermənistan hakimiyyəti mitinqlə bağlı məlumatları yaymağa mane olsa da, bəlli olub ki, əllərində Ermənistan və Avropa Birliyinin bayraqlarını tutmuş yürüş iştirakçıları bildiriblər: "Bu bizim müharibə deyil, rejimin müharibəsidir". Ermənistanın "Tert.am"saytının müxbirilə söhbət edən yürüş iştirakçılarından biri məramlarını bütün Ermənistan əhalisinə çatdırmaq istədiklərini bildirib.

Ermənistandan Azərbaycana hərbi xidmətə göndərilən erməni zinvorlarının davranışı da göstərir ki, onları buna zorla vadar edirlər. Ağdam istiqamətindəki hərbi hissələrdən birinin zabiti deyir ki, son günlər erməni tərəfinin təşvişi açıq-aydın müşahidə olunur: "Erməni hərbçilər məlum insidentdən sonra peşman olduqlarını başa düşüblər və Azərbaycan tərəfinə rus dilində səslənərək "xahiş edirik, atəşi kəsin" deyə yalvarırlar".

Cəbhə bölgəsində baş vermiş məlum hadisələrdən sonra Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Ağdam və Bərdə rayonlarına səfər etməsi insanların ruhunu daha da yüksəltdi.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev əvvəlcə Ağdamdakı "N" hərbi hissəsinə gəldi. Dövlət başçısı döyüş tapşırığını yerinə yetirərkən xüsusilə fərqlənmiş bir qrup hərbçiyə qiymətli hədiyyələr təqdim etdi.

Ali Baş Komandanın cəbhə bölgəsində baş vermiş düşmən təxribatlarına qiyməti yetərincə sərt oldu. Müdafiə Nazirliyinin müntəzəm olaraq operativ məlumat verdiyini, vəziyyətin tam nəzarət altında olduğunu vurğulayan ölkə rəhbəri bir daha bəyan etdi:" Bu gün təmas xəttində olarkən son günlər ərzində baş vermiş hadisələri də yada salırıq. Düşmən, erməni işğalçı qüvvələri bir həftə bundan əvvəl qorxaqcasına, namərdcəsinə gecə vaxtı bizim mövqelərimizə hücum etmişlər. Biz itki vermişik, əsgərlərimiz şəhid olmuşlar. Allah bütün şəhidlərə rəhmət eləsin, onların ailələrinə, yaxınlarına səbir versin. Ancaq, eyni zamanda, düşmən layiqli cavab aldı. Həmişə olduğu kimi, erməni tərəfi öz itkilərini gizlədir".

Bu gün düşmənin panikada, isterikada olduğunu diqqətə çatdıran Ali Baş Komandan eyni zamanda bildirdi:" Biz öz torpağımızdayıq. Bir həftə bundan əvvəl həlak olmuş şəhidlərimiz öz torpağında şəhid olmuşlar. Sual olunur: erməni əsgərinin - işğalçı qüvvələrin əsgərinin Ağdam ərazisində nə işi var? Bu gün Ermənistanın faşist rəhbərliyi, hərbi xunta öz ölkəsini uçuruma aparır. Onlar bizim torpaqlarımızı işğal ediblər, eyni zamanda, bütün Ermənistanı işğal ediblər. Erməni xalqı kriminal, korrupsioner rəhbərlikdən öz canını qurtarmalıdır. Əks təqdirdə Ermənistanı böyük fəlakətlər gözləyir".

Dövlət başçısı son illərdə ordu quruculuğu sahəsində görülmüş işlərə bir daha toxunaraq qeyd etdi ki, bizim mövqelərimiz möhkəmdir, güclüdür və təmas xəttində Azərbaycan Ordusu tam üstünlüyü əldə edib:" Azərbaycan Ordusunun peşəkarlığı, döyüş qabiliyyəti artır, Azərbaycan əsgər, gizir və zabitləri Vətənə ləyaqətlə xidmət edirlər, öz Vətəninə sadiqdirlər. Bizim bütün hərbi hissələrimizdə, xüsusilə ön cəbhədə yerləşən hərbi hissələrdə ruh yüksəkliyi var və Azərbaycan əsgərinin vətənpərvərlik hissləri çox yüksəkdir, möhkəmdir".

Prezident İlham Əliyev bundan sonra da ordumuza diqqət və qayğını əsirgəməyəcəyini xüsusilə vurğuladı:"Biz bundan sonra da öz döyüş potensialımızı artıracağıq. Hazırda Azərbaycan Ordusunun maddi-texniki təchizatı ən yüksək səviyyədədir. Son vaxtlar əldə etdiyimiz silah, texnika deməyə əsas verir ki, biz istənilən vəzifəni icra edə bilərik.

Son vaxtlar həm Azərbaycanda müasir silah və texnika istehsal olunur, eyni zamanda, xarici mənbələrdən aldığımız avadanlıq, texnika, silah-sursat ən müasir standartlara cavab verir. Hava hücumuna qarşı ən müasir qurğular əldə edilibdir. Ordumuzda ən güclü artilleriya qurğuları vardır. Böyük dəqiqliyə və çox böyük dağıdıcı qüvvəyə malik olan raket sistemləri, döyüş və nəqliyyat helikopterləri, döyüş təyyarələri, zirehli texnika, tanklar - bütün bunlar bu gün Azərbaycan Ordusunun potensialını təşkil edən amillərdir".

Ali Baş Komandanın üzünü son günlərdə baş vermiş qarşıdurmada fərqlənmiş hərbçilərə tutaraq bildirdiyi minnətdarlıq sözləri konkret şəxslərə aid olsa da, söylədiyi əminlik əslində Azərbaycan Ordusunun bütün zabit, gizir və əsgərlərinə ünvanlanmışdı:"Göstərdiyiniz cəsarətə görə, peşəkarlığa görə sizə Azərbaycan xalqı adından öz minnətdarlığımı bildirmək istəyirəm və əminəm ki, bundan sonra da bütün döyüş tapşırıqlarını ləyaqətlə icra edəcəksiniz! "

**"Azərbaycan Ordusu"**

## Baş nazir Artur Rasizadə Latviyanın müdafiə naziri ilə görüşüb

***Avqustun 7-də Azərbaycan Respublikasının Baş naziri Artur Rasizadə ölkəmizdə rəsmi səfərdə olan Latviya Respublikasının Müdafiə naziri Raymonds Veyonisin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

Nazirlər Kabinetinin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, görüşdə Baş nazir Azərbaycanla Latviya arasında siyasi, iqtisadi, mədəni sahələrdə əməkdaşlığın inkişaf etdiyini məmnunluqla vurğulayıb. Artur Rasizadə bu səfərin hərbi-texniki sahədə də əməkdaşlığın genişlənməsinə kömək edəcəyinə əminliyini bildirib. Sonra qonaqların diqqətini Ermənistanın yürütdüyü işğalçılıq siyasətinə yönəldən Baş nazir Dağlıq Qarabağ münaqişəsi və onun ağır nəticələri barədə ətraflı məlumat verib.

Latviyanın Müdafiə naziri Bakıda keçirdiyi görüşlər və apardığı danışıqlar barədə Baş nazirə məlumat verərək bildirib ki, azərbaycanlı həmkarları ilə hərbi hazırlıq, təlim-təhsil sahəsində təcrübə mübadiləsi və digər sahələrdə əməkdaşlıq barədə fikir mübadiləsi aparılıb. Regionun aktual problemləri ətrafında danışarkən qonaq Ermənistanın yürütdüyü təcavüzkar siyasəti qətiyyətlə pisləyərək, Latviyanın hər zaman Azərbaycanın haqq işini müdafiə etdiyini və münaqişənin beynəlxalq hüquq normaları əsasında həllinin vacibliyini vurğulayıb. Raymonds Veyonis səfərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

## "Pakistan Dağlıq Qarabağ münaqişəsində hər zaman Azərbaycanı dəstəkləyir"

***Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzində Pakistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Xalid Usman Qayser ilə görüş keçirilib.***

Mərkəzdən AzərTAc-a bildirilib ki, görüşdə BMAM sədri Rufiz Qonaqov hər iki ölkənin vətəndaş cəmiyyətləri arasında əməkdaşlığın vacibliyini, Pakistanın Azərbaycana dost və qardaş ölkə olduğunu vurğulayaraq Azərbaycanda vətəndaş cəmiyyətinin gündən-günə inkişaf etməsindən, dövlətin bu sahəyə və beynəlxalq QHT-lərə verdiyi dəstəkdən danışıb.

Rufiz Qonaqov bildirib ki, dövlət başçısının müvafiq sərəncamları ilə yaranmış Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurası və Prezident Yanında Gənclər Fondu tərəfindən hər il yüzlərlə QHT maliyyə dəstəyi alır. Məhz dövlətin dəstəyi sayəsində QHT-lər öz fəaliyyətlərini daha da genişləndirir. Eyni zamanda R.Qonaqov Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində gedən prosesi, son günlər cəbhə xəttində erməni silahlı qüvvələrinin Azərbaycana qarşı həmlələrini, bu münaqişənin tezliklə ədalətli formada həll edilməsinin vacibliyini vurğulayıb və Qafqaz regionunda stabilliyin bərqərar edilməsi zəruriliyini səfirin diqqətinə çatdırıb.

Pakistan səfiri Xalid Usman Qayser bildirib ki, belə görüşlər ölkələrin vətəndaş cəmiyyətləri arasında əməkdaşlığın daha da gücləndirilməsinə kömək edir.

Diplomat BMAM-ın belə təşəbbüslərini alqışlayıb və əməkdaşlıq üçün rəhbərlik etdiyi səfirlik tərəfindən hərtərəfli dəstək veriləcəyini qeyd edib. Eyni zamanda səfir Azərbaycan-Pakistan arasındakı mövcud əlaqələrin inkişafından danışan səfir ölkəsinin Azərbaycanın müstəqilliyini tanıyan ilk üç dövlətdən biri olduğunu qeyd edib.

O, Dağlıq Qarabağ münaqişəsində hər zaman Azərbaycanı dəstəklədiyini və dünyada Ermənistanı tanımayan yeganə dövlətin Pakistan olduğunu vurğulayıb.

## Mingəçevir Su Elektrik Stansiyasında diversiya törədilərsə, ermənilər bunun çox sərt və adekvat cavabını alacaqlar

***Ermənistan Respublikasının Müdafiə naziri Seyran Ohanyanın Mingəçevir Su Elektrik Stansiyasına qarşı diversiya törədilməsi barədə səsləndirdiyi fikrə cavab olaraq bildiririk ki, əgər belə bir hadisə baş verərsə, Silahlı Qüvvələrimizin cavabı dərhal və layiqli olacaqdır.***

Silahlı Qüvvələrimiz işğal olunmuş rayonlarımızda və Ermənistan Respublikasının ərazisində yerləşən düşmənin bütün hərbi obyektlərinə zərbə endirmək imkanlarına malikdir.

Ermənistan tərəfindən Mingəçevir Su Elektrik Stansiyasına qarşı hər hansı təxribat cəhdləri baş verərsə, erməni xalqı bilməlidir ki, bunun cavabı onlar üçün daha acınacaqlı olacaqdır.

Müdafiə Nazirliyi bəyan edir ki, Ermənistan Respublikası istiqamətində tuşlanmış raketlərimiz düşmən ölkənin paytaxtı Yerevan şəhərini belə yerlə yeksan etmək əmrini icra etməyə hazıdır.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

AZƏRBAYCAN ORDUSU

## Gənc döyüşçü Elçin Quliyev:

# “Cənab nazir, biz tezliklə sağalıb Vətənimiz uğrunda döyüşəcəyik!”

### Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti Baş Klinik Hospitalda yaralı döyüşçülərlə görüşüb



***Qızmar avqustun ilk günləri müdafiənin ön xəttindəki gərginliklə yadda qaldı. Öz çirkin işğalçılıq niyyətindən əl çəkməyən erməni faşistləri cəbhə xəttinin müxtəlif istiqamətlərində mövqelərimizə basqınlar törətdilər. Gecənin bir aləmində xain düşmənlərin hücumundan xəbər tutan ordumuzun ön xətdəki bölmələrinin döyüşçüləri dərhal həyəcan siqnalı ilə savaşa atıldı. Bu dəfə də düşmənin kəşfiyyat-diversiya qrupları igid döyüşçülərimizin mətinliyi və qəhrəmanlığı qarşısında aciz qalaraq geri çəkilməyə məcbur oldu. Ermənilərin böyük itkilər verməsi ilə yanaşı, çox təəssüf ki, hərbi qulluqçularımız arasında da ölən və yaralananlar oldu. Azərbaycan cəmiyyətinin müxtəlif təbəqələrinin nümayəndələri şəhidlərimizin bölgələrdə təşkil edilən dəfn mərasimlərində bir daha yaxından iştirak edərək qəhrəman Vətən oğullarının ruhuna hörmət və ehtiramlarını ifadə etdilər, şəhidlərimizin ailə üzvlərinə və doğmalarına dərin hüznlə başsağlığı verdilər. Silahlı Qüvvələrimizin düşmənə tutarlı cavabı ictimaiyyət arasında böyük ruh yüksəkliyi doğurdu. Bütün bölgələrdən Müdafiə Nazirliyinin ünvanına gələn müraciətlərdə insanlar Azərbaycan Ordusunun döyüş qüdrətindən sonsuz qürur duyduqlarını bildirərək istənilən köməkləri ilə döyüşçülərimizə dəstək olacaqlarını qeyd edirlər.***

Həmçinin Müdafiə Nazirliyinin rəhbərliyi, şəxsən general-polkovnik Zakir Həsənov ön xətdə qəhrəmanlıq göstərərək şəhid olan döyüşçülərimizin ailələrinə dərin hüznlə başsağlığı verdi. Müdafiə nazirinin müvafiq əmri ilə şəhid döyüşçülərimiz yüksək mükafatla- "Hərbi xidmətdə fərqlənməyə görə" 3-cü dərəcəli medalı ilə təltif edildilər. Bu medal nazirliyin rəsmi nümayəndələri tərəfindən şəhid ailələrinin üzvlərinə təqdim olundu.

Avqustun 8-də isə Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti ötən həftə düşmənin təxribat-diversiya qruplarının hücum cəhdinin qarşısının alınması zamanı yaralanan hərbi qulluqçulara baş çəkmək üçün Silahlı Qüvvələrin Baş Klinik Hospitalında oldu.

Öncə xalqımızın ümummilli lideri Heydər Əliyevin hərbi səhiyyə müəssisəsinin həyətində ucaldılmış abidəsini ziyarət edən Müdafiə naziri və yüksək rütbəli zabitlər abidə önünə tər çiçək dəstələri düzdülər.

Sonra Müdafiə naziri hospitalın reanimasiya və ortopediya bölmələrində müalicə olunan yaralı hərbi qulluqçularla görüşdü. Hər bir döyüşçünün sağlamlıq durumu ilə yaxından maraqlanan Zakir Həsənov onlarla söhbət edərək, arzu və istəklərini dinlədi. Hər kəslə ayrı-ayrılıqda maraqlanan nazir bildirdi ki, bu gün Azərbaycan xalqı onların qəhrəmanlığından danışır. "Bizim ünvanımıza hər yerdən müraciətlər gəlir, hamı bir nəfər kimi sizin yanınızdadır və ordumuzun döyüş qüdrəti, sizin mərdlik və qəhrəmanlığınız dillərdə dastan olub. Bu gün siz ən böyük qiymətə, tərifə layiqsiniz. Möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də Ağdamdakı hərbi hissədə çıxışında qeyd etdi ki, döyüşlərdə hünər və şücaət göstərən hər bir əsgər, zabit və gizir xalqımızın sevimlisidir və onlar ən yüksək qiymətə layiqdirlər", - deyə general-polkovnik Zakir Həsənov bildirdi.





Müdafiə nazirinə hospitalın həkimləri tərəfindən məlumat verildi ki, hazırda yaralılar intensiv müalicə alır və onların həyatina təhlükə yoxdur.

Ortopediya bölməsinin rəisi tibb xidməti polkovnik-leytenantı Əbülfət Həmidov ordu rəhbərliyinə bildirdi ki, yaralı hərbçilərimizin hər biri diqqətlə müalicə olunur və onların tezliklə sağalıb hərbi xidmətə qayıtmaları üçün bütün intensiv müalicə tədbirləri həyata keçirilir.

Həmçinin yaralı döyüşçülər göstərilən yüksək diqqət və qayğıya görə nazirə öz minnətdarlıqlarını çatdırdılar. Hazırda səhhətlərinin yaxşı olduğunu və hərbi tibb kollektivi tərəfindən yüksək qayğı ilə əhatə olunduqlarını bildirən döyüşçülərimiz sağaldıqdan sonra tezliklə doğma hərbi hissələrinə qayıdacaqlarını və erməni işğalçılarına qarşı mübarizə aparmaq əzmində olduqlarını ifadə etdilər.

Cəbhə xəttindəki "N" hərbi hissəsinin gənc döyüşçüsü, Cəbrayıl rayonundan həqiqi hərbi xidmətə çağırılmış əsgər Elçin Quliyev fürsət tapıb Müdafiə nazirinə bir arzusunu çatdırdı:

- Cənab nazir, burada müalicə olunan döyüşçü yoldaşlarım adından Sizə bir istəyimizi bildirmək istərdim: bu gün bizim əsas arzumuz ondan ibarətdir ki, tezliklə sağalıb doğma hərbi hissəmizə qayıdaq və döyüşçü dostlarımızla çiyin-çiyinə səngərdə Vətənimizi qoruyaq.

Sadə bir Azərbaycan əsgərinin sözləri Müdafiə nazirində ən xoş hisslər doğurdu. General-polkovnik Zakir Həsənov bu sözlərdən sonra üzünü "Azərbaycan Ordusu"nun əməkdaşına tutaraq, "Baxın, belə qəhrəman əsgərlərimizdən yazın", - dedi.

Sonda Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalın tibb heyətinə öz tövsiyə və tapşırıqlarını verdi.

**Mayor**
**Arif PƏNAHOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**Vüsal HƏMİDOVUNDUR**

*Ön xətdən reportaj*

# “Təki Vətənimə xətər toxunmasın”

***Yayın qızmar günləri işimizə mane ola bilmir. Bu dəfə istiqamətimiz Ağdama tərəfdir. Məqsədmiz müharibənin ağrılı günlərinin şahidi olan bu torpaqlarda Vətənə xidmət edən gənclərimizlə görüşmək, qayğıları ilə maraqlanmaqdır. Məqsədə aparan yol ləngiməyə icazə vermir. Yol boyu ətrafa diqqət edirəm. Günəş ağacların arasından öz yandırıcı şüalarını üzümə vurur. Havanın istiliyini dərindən hiss edirəm.***

***Yol kənarında bulaq görüb dayanıram. Bulağın yanında olan ağsaqqalla salamlaşıb söhbətə başlayıram. Yollara nabələd olduğum üçün mənə istiqamət verməsini xahiş edirəm. Ağsaqqal gedəcəyim yeri aydınlıqla göstərib danışmağa başlayır.***

- Oğul, mənim adım Sabirdi, özüm də tarix müəllimiyəm və Ağdamda böyüyüb boya-başa çatmışam. Evi yıxılmış ermənilər torpaqlarımızdan tarix boyu göz çəkməyiblər, - deyə Sabir müəllim ötüb-keçənlərdən söhbət açır.

- İndiki Ağdam şəhəri ilk yaşayış məskəni kimi eramızdan əvvəl I minillikdə yaranıb. Dağlıq Qarabağ hadisələri başlayan gündən Ağdam burada cərəyan edən hadisələrin mərkəzinə çevrilib.

Mövcud dövlətini qədim Azərbaycan torpaqlarında qurmuş Ermənistan Dağlıq Qarabağı işğal etmək məqsədi ilə öz çirkin planlarına ilk olaraq Ağdam rayonundan başlamışdı.

1988-ci ilin son aylarında Ermənistandan öz ata-baba yurdlarından, daha sonra Dağlıq Qarabağ Muxtar Vilayətindən doğma isti ocaqlarından silah gücünə amansız vəhşiliklərlə qovulub didərgin salınan on minlərlə azərbaycanlı məhz Ağdam rayonuna pənah gətirmişdi.



1992-ci ildə Dağlıq Qarabağı bütünlüklə işğal edən Ermənistan Rusiya ordusuna arxalanaraq, ətraf rayonlarımıza da hücum etdi. Xüsusən Ağdama olan hücumların ardı-arası kəsilmirdi, - deyə ağsaqqal qeyd etdi.

Hərbi hissəyə çatanda bizi polkovnik-leytenant Çingiz Mehdiyev qarşılayır. O, şəxsi heyətin təlim-tərbiyəsi ilə məşğul olan məsul zabitlərdəndir. Təcrübəli zabit atəşkəsin pozulmasından, qorxmaz Azərbaycan əsgərlərindən danışır. Postlarda sayıqlığın artırılması məqsədi ilə bütün qüvvənin ön xəttə göndərildiyini qeyd edən Ç.Mehdiyev bizə kapitan Sədrəddin Haqverdiyevin yoldaşlıq edəcəyini bildirdi.

Yol yoldaşımla salamlaşıb yola düşürük. Kapitanla söhbətimiz başlayır. Biz səmimi söhbət edirik. Və söhbət zamanı mən kapitanı tanıyıram. O, artilleriya divizionunda şəxsi heyətin təlim - tərbiyəsi ilə məşğul olur. Uzun illər cəbhə bölgəsində xidmət edib.

Maşın sürətlə şütüyür. Kapitan danışır... Xidmət etdiyi Gədəbəy dağlarından, döyüş postlarından danışdıqca keçmiş günləri xatırladığını hiss etmək çətin deyil. Gözlərinə, simasına baxıram... Danışdıqca gözlərində Vətən eşqi, düşmənə nifrəti aydın hiss olunur...

Kapitan danışır... Onun bir kəlməsini də qaçırmamağa çalışıram. Zabit danışır və mən ətrafa baxıram. Ön xətdə yerləşən mövqelərimizə çox az qalmasına baxmayaraq, evlər, insanlar görünür. İnsanlar çox rahat görünürlər. Sanki sərhəd bölgəsində yaşamırlar. Düşmənlə yaxın məsafədə olmaq, gecə yarısı atəş səslərinə ayılmaq onları yaşamlarından, ata-baba torpaqlarından ayıra bilmir. Hər an təhlükəsi olsa da, bu insanlar bütün həyatlarını cəbhə bölgəsinin özəlliklərinə uyğunlaşdırıblar.

**(Ardı 3-cü səhifədə)**

# Ağ Evin qarşısında erməni təcavüzünə qarşı etiraz aksiyası keçirilib

Avqustun 7-də Ağ Evin qarşısında "Ermənistanın Azərbaycana qarşı təcavüzünü dayandır!" devizi ilə etiraz aksiyası keçirilib. Vaşinqtonda və onun ətrafında yaşayan, habelə Nyu-York şəhərindən gələn azərbaycanlı və türk icmasının üzvləri Qarabağın işğalını pisləyən, BMT Təhlükəsizlik Şurasının işğal altındakı Azərbaycan torpaqlarının qeyd-şərtsiz azad olunmasına dair qətnamələrinin yerinə yetirilməsini tələb edən, ABŞ administrasiyasını Ukrayna, Gürcüstan, Moldova və Azərbaycanın məruz qaldığı separatizmi tənqid etməyə çağıran plakatlar nümayiş etdiriblər.

Aksiya boyunca "Erməni təcavüzünə son qoyun!", "Sarkisyan - cinayətkar!", "Qarabağ Azərbaycan torpağıdır", "Cənab Prezident, separatizmi tənqid edin!", "Biz sülh istəyirik!", "Prezident Obama, Azərbaycana dəstək verin!" şüarları səslənib. Bununla yanaşı, Ermənistan silahlı qüvvələri tərəfindən törədilmiş Xocalı qətliamını təsvir edən fotoşəkillər və plakatlar da nümayiş olunub.

ABŞ Azərbaycanlıları Şəbəkəsinin həmtəsisçisi Bədir Məmmədli qeyd edib ki, Ermənistan silahlı qüvvələrinin bir neçə gün əvvəl törətdikləri diversiya aktları yolverilməzdir. Ermənistanın artıq 26 ildir davam edən işğalçılıq siyasətinə son qoyulmalıdır. Azərbaycan beynəlxalq hüquq çərçivəsində öz torpaqlarını qaytarmaq hüququna malikdir və Amerika azərbaycanlıları Prezident Obamanı və ABŞ administrasiyasını bu işdə ölkəmizə dəstək olmağa çağırır.

Əslən Şuşa şəhərindən olan Pənah İbrahimov deyib ki, regionda separatizmə son qoyulmalı və ABŞ hökuməti başqa ölkələrdə tətbiq etdiyi ərazi bütövlüyünə dəstək siyasətini açıq şəkildə Azərbaycana da şamil etməlidir. Ermənistandan qəti surətdə tələb olunmalıdır ki, işğal altında saxladığı Azərbaycan torpaqlarını dərhal boşaltsın.

Aksiyaya toplaşan 80 nəfərə yaxın icma üzvü Prezident Obamanı Ermənistan hökumətinə təzyiq göstərməyə çağırıb.

# Azərbaycanda akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşeləri cəbhədəki son vəziyyətlə bağlı məlumatlandırılıblar





***Avqustun 8-də Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində xarici dövlətlərin ölkəmizdə akkreditə olunmuş xarici dövlətlərin hərbi attaşelərinin iştirakı ilə tədbir keçirilib.***

Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Ramiz Nəcəfov və Mətbuat Xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində son zamanlar yaranan gərginliklə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verərək onları atəşkəsin pozulması, düşmənin müdafiənin ön xəttinə etdiyi basqın cəhdlərinin səbəbləri və nəticələri barədə obyektiv informasiya ilə təmin ediblər.

Sonda tədbir iştirakçılarının sualları ətraflı cavablandırılıb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# "Təki Vətənimə xətər toxunmasın"



(Əvvəli 2-ci səhifədə)

Maşın torpaq yolla gedir. Qarşımıza uçuq-sökük bina çıxır.

- Bu bina əvvəllər əsgər yataqxanası idi. Bir qədər irəlidə isə onu daha müasir və hər bir şəraiti olan əsgər yataqxanası əvəz edir, - deyə kapitan Haqverdiyev bildirdi.

Zabit son dövrlər orduya göstərilən diqqət və qayğıdan da söz açdı. Əşya və ərzaq təminatında, əsgərlərin məişətindəki ciddi dəyişikliklərdən söhbət etdı.

Kapitan Sədrəddin Haqverdiyevin bir az əvvəl haqqında danışdığı müasir hərbi bölməyə gəlib çıxırıq. Bizi bölük komandiri baş leytenant İlqar Kərimov qarşılayır. 2010-cu ildə hərbi təhsilini başa vuran zabit artıq 3 ilə yaxındır ki, cəbhə bölgəsindədir.

Buradan döyüş postuna yollanırıq. Səngəri xatırladan torpaq yollarla irəliləyirik. Cəbhə boyu yerləşən xidməti vəzifələrini yerinə yetirən mühəndis-istehkamçılarla qarşılaşırıq.

Nəhayət, mənzil başına çatdıq. Bizi ilk postda qarşılayan isə gizir Rahid Kərimovdur. Gizirlə söhbət edirik. Bura gəlməmişdən öncə R.Kərimovun səmimi, qayğıkeş və vətənpərvər hərbçi olduğunu bildirmişdilər. Döyüş postunda olarkən əsgər və çavuşlarla səmimi rəftarını, canıyananlığını hiss edəndə deyilənlərin həqiqət olduğunu başa düşdüm.

Biləsuvar rayonundan olan gizir Rahid Kərimov 2009-cu ildən bu bölgədə xidmət edir. Əsgərlərindən razı olduğunu bildirən gizir burada yaxşı bir hərbi kollektivin formalaşdığı üçün sevindiyini etiraf edir.

- Rütbəmizdən, vəzifəmizdən asılı olmayaraq hər birimiz Azərbaycan əsgəriyik. Döyüş növbətçiliyinə çıxan hər bir əsgərə ermənilərin başımıza gətirdikləri vəhşiliklərdən, 20 Yanvar hadisələrindən, Xocalı faciəsindən danışıram. Postda müqəddəs bir vəzifəni yerinə yetirdiklərini - Vətənimizi qoruduqlarını xatırladıram, - deyir gizir.

Düşünürəm ki, əsgərlərin özləri ilə söhbət etsək, daha yaxşı olar. Əsgərlər bəlkə də hər kəsdən daha ünsiyyətcildirlər. Onlar Vətənin keşiyində gecə-gündüz dayanan mərd, mətin oğullardır.

Əsgər Elfaq Əsgərov, hərbi xidmətə Şəmkir rayonundan çağırılıb, atıcı vəzifəsindədir. 14 aydır ki, ön xətdə xidmət edən Əsgərov deyir ki, atıcı vəzifəsinə hədəfləri dəqiq və sərrast vurduğu üçün təyin olunub. İlk dəfə silahı görəndə hər şeyin ona çətin gəldiyini deyən əsgər indi silahının xüsusiyyətlərini mükəmməl bildiyini və atıcılıq bacarığına malik olduğunu fəxr hissi ilə deyir. "Hər döyüş növbətçiliyinə çıxanda silahımla baş-başa qalıram və bir gün düşməndən etdiklərinə görə qisas alacağıma and içirəm. Düşmənə olan nifrətim ayıq-sayıqlığımı daha da artırır".

Gənc döyüşçü Araz Hətəmli isə Yardımlı rayonundandır. Araz deyir ki, gecələr burada tez-tez atəş səsləri eşidilir. Amma bu, onları qorxutmur. Əksinə qürur duyur ki, qüdrətli Azərbaycan Ordusunun döyüşçüləri siyahısında onun da adı çəkilir.

N" hərbi hissəsində əsgərlərin yaşam tərzi, yeməkləri ilə maraqlandım. Əsgər kazarması təmiz, səliqəli idi. Yeməkləri də hər gün qaydasında verilir. Onlara olan diqqət və qayğını həm zabitlərin, həm də əsgərlərin söhbətlərindən hiss edirəm.

Əsgər Elsun Cəfərli deyir ki, burada onlara qayğı ilə yanaşırlar. Daim dəstək olurlar. "Qidalanma sarıdan heç vaxt problem olmur, hər gün vaxtında yeməklərimiz verilir, yaradılan imkanlardan çox razıyıq".



Cəbhə bölgəsində xidmət etməkdən zövq aldığını bildirən Cəfərli bütün Azərbaycan gənclərini də Vətənin keşiyində qeyrətlə, qorxmadan dayanmağa çağırdı.

- 10 aydır ki, doğulub boya-başa çatdığım Cəlilabaddan Ağdama - Vətənimin keşiyində durmağa gəlmişəm, - dedi əsgər Samid Zeynalov. - Bütün əsgər yoldaşlarımızla tək məqsədimiz var: torpaqlarımızı azad etmək. Hər gün döyüş növbətçiliyinə çıxarkən silahın nişangahından işğalda olan torpaqlarımıza baxıram. O torpaqların illərdən bəri düşmən tapdağında olduğunu hiss etmək çox ağırdır.

Müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu Elgün Həmidov isə deyir ki, ordu mühiti başqa dünyadır. Müddətli hərbi qulluğunu başa vuran E.Həmidov 2008-ci ilin oktyabr ayından yenidən taleyini orduya bağlayıb.

- İnsan burada yorulmur, - dedi Elgün.- İlk vaxtlar darıxa bilərsən, amma zaman keçdikcə ayrılmaq istəmirsən Vətəndən, silah yoldaşlarından. Sən burada olanda ailənin güvəndə olduğuna əmin olursan. Mən indi rahatam. Çünki nə təhlükə gəlsə, biz onu dəf etməyə hazırıq. Yetər ki, anama - Vətənimə heç nə olmasın".

Artıq hava qaralmaq üzrədir. Verilən tapşırığa görə döyüş növbətçiliyi gücləndirilməlidir.

Son həmsöhbətim isə bacarıqlı döyüşçülərdən biri Zaur Məmiyev olur. Əsgər də yoldaşları kimi yeganə məqsədlərinin torpaqlarımızı azad etmək olduğunu bildirdi. "Biz burada vahid düşmənə qarşı dayanmışıq. Əzəli düşmənimiz olan bədxahları yer üzündən siləcək güclü ordumuz var. Biz bununla fəxr edirik".

Getmək vaxtıdır... Qürurluyam, çünki bir daha əsgərlərin simasından Vətən eşqini duydum... Sevincliyəm, əsgərlərin simasında qələbəyə ümid var... Xoşbəxtəm, yenə də mərd Azərbaycan oğulları ilə görüşdüm... Vətənin keşiyində möhkəm dayanmalarını arzu edərək onlarla xüdahafizləşirəm. Allaha əmanət olun....

**Leytenant Ceyhun CƏFƏRLİ, "AzərbaycanOrdusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Erməni əsir qəflətən naməlum səbəbdən dünyasını dəyişib

Xəbər verdiyimiz kimi, avqustun 7-də Tovuz rayonunun ərazisində ermənilərin kəşfiyyat-təxribat qrupu qoşunların təmas xəttini keçməyə cəhd göstərib. Düşmən qrupunun zərərsizləşdirilməsi istiqamətində görülən tədbirlər nəticəsində dəstənin 4 üzvü məhv edilmiş, daha bir üzvü, Berd rayonunun Çinari kənd sakini, 1989-ci il təvəllüdlü Karen Petrosyan isə əsgərlərimiz tərəfindən ələ keçirilmişdi.

Avqustun 8-də səhər saatlarında dəstənin ələ keçirilmiş üzvü Karen Petrosyan qəflətən naməlum səbəbdən dünyasını dəyişib.

İlkin ehtimala görə K.Petrosyanın ölümünə kəskin ürək-ağciyər çatışmazlığı, kəskin miokardial çatışmazlıq səbəb olub. Hazırda Müdafiə Nazirliyi Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Mərkəzinin Gəncə regional bölməsinin ekspertləri ölümün səbəblərini dəqiqləşdirirlər.

Hadisə barədə Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan nümayəndəliyi məlumatlandırılıb.

*Təlim*

# Çalışqanlığın nəticəsi



***Oxuyub öyrənməkdən, bilik qazanmaqdan indiyə kimi heç kim ziyan görməyib. Hələ əksinə, əldə etdiyi biliyə görə hər kəs həyatda uğur qazanıb, arzusuna, istəyinə qovuşub. Ordu həyatı da belədir, nə qədər çox bilikli, bacarıqlı olsan, xidmətdə uğur qazanacaqsan. Bu həqiqəti hər bir hərbçi dərindən dərk edir və dərslərə, təlimlərə məsuliyyətlə yanaşır.***

Bu günlərdə "N" hərbi hissəsində ezamiyyətdə olarkən təlim keçən zabit və əsgərlərlə görüşdüm. Dərslərin gedişini diqqətlə izlədim. Əsgərlərin döyüş hazırlığının yüksək olduğunu gördüm. Zabit Mənsur İbadov söhbət zamanı bildirdi ki, komandanlığın təsdiq etdiyi döyüş hazırlığı planına uyğun olaraq şəxsi heyət dərs və məşğələlər keçərək hərbi biliklərini artırır. Təlimlər səmərəli keçdiyindən əsgərlər döyüş vərdişlərini mükəmməl şəkildə mənimsəyirlər. Dərs prosesində zabitlər bütün tədris vasitələrindən yetərincə bəhrələnməyə çalışırlar. Məhz belə çalışqanlığın nəticəsidir ki, əsgərlər tez bir zamanda uğur əldə edirlər. Təbiidir ki, bu gün təlimdə müsbət nəticə göstərən əsgərlər sabah döyüşdə qələbə qazanacaqlar.

Sonra zabit M.İbadovla "Qrad" qurğusunun yanında məşğələ keçən şəxsi heyətə yaxınlaşdıq. Bizi burada kapitan İlham Şəkərov qarşılayıb bildirdi ki, bu gün zabitlərin üzərinə çox məsuliyyətli vəzifələr düşür. Bu vəzifələrdən biri də şəxsi heyətə dərs və məşğələlər keçib onlara hərbi bilikləri aşılamaqdır. Qarşımızda dayanan bu və ya digər vəzifələri yerinə yetirmək üçün xidmətimizə məsuliyyətlə yanaşırıq. Məşğələnin hər dəqiqəsindən səmərəli istifadə edərək əsgərlərə hərbi bilikləri öyrədirik. Məşğələdən-məşğələyə əsgərlərin hazırlığı və təcrübəsi artır. İndi onlar sirlərini öyrəndikləri "Qrad" qurğusunu heç bir çətinlik çəkmədən "döyüş" və "səfər" vəziyyətinə gətirirlər. Bu çox müsbət göstəricidir. Amma şəxsi heyətimiz qazandıqları uğurlarla kifayətlənmək fikrində deyil. Şəxsi heyətin dərs və məşğələlərdə maraqla iştirak etməsi onların hərb sənətinə ürəkdən bağlanmasından, Vətənə olan sevgisindən xəbər verir. Belə vətənpərvər əsgərlərlə hər birimiz fəxr edib öyünürük. Əlbəttə, hazırlığı yüksək olan əsgərlərimiz torpaqlarımızın azadlığı uğrunda gedən mübarizədə hünər və rəşadət göstərəcəklər.

Kapitan söhbətinə davam edərək xidmətdə fərqlənən əsgərlərdən də söz açdı. Xidməti vəzifəsinin öhdəsindən bacarıqla gələn əsgərlərdən Cavid İsayev, Aqşin Dadaşov, Pünhan Qasımov, Niyaməddin İsayev, Elnur Əlizadə və başqalarının adlarını çəkdi.

Bayaqdan başlanan məşğələ davam edir. Kapitan İ.Şəkərov dərsin mövzusunu şəxsi heyətə ətraflı izah edir. "Qrad" qurğusunun taktiki-texniki xüsusiyyətlərini onlara başa salır. Əsgərlər isə diqqətlə komandirə qulaq asaraq, döyüş hazırlıqlarını daha da artırmağa çalışırlar.

**Mayor Vahid MƏHƏRRƏMOV "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Moskvada Azərbaycan Ordusuna dəstək aksiyası keçirilib



Azərbaycanın Rusiyadakı səfirliyinin binası qarşısında "Moskva Azərbaycan Cəmiyyəti"nin təşəbbüsü ilə son günlər Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində baş vermiş məlum hadisələrlə bağlı Azərbaycan diasporu üzvlərinin iştirakı ilə aksiya keçirilib.

Səfirliyin mətbuat xidmətindən AzərTAc-a bildiriblər ki, "Moskva Azərbaycan Cəmiyyəti"nin sədri Oqtay Hüseynov, Cəmiyyətin fəalları Mircamal Rəhimli, Kənan Qəribov, Əliş Kərimov, Məhəmməd Rəfiyev, Musa Musayev və "Lider" televiziya kanalının Rusiya üzrə müxbiri Anar Həsənov nümayişdə çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə dəstək olmağa və xalqımızla həmrəylik nümayiş etdirməyə çağırıblar.

Çıxışlarda son günlər cəbhə bölgəsində yaranmış gərgin vəziyyətin qəbuledilməz olduğu bildirilib.

## Rusiyanın rabitə nazirinin yeni müavini azərbaycanlıdır



Rusiyanın rabitə və kütləvi kommunikasiyalar nazirinə yeni müavin təyin edilib. Bu postu əslən azərbaycanlı olan Rəşid İsmayılov tutub. O, yeni vəzifəsində informasiya texnologiyaları sahəsinin inkişafı və beynəlxalq əməkdaşlıq məsələləri ilə bağlı işlərə rəhbərlik edəcək.

AzərTAc Rusiya KİV-lərinə istinadla xəbər verir ki, Rəşid İsmayılov bundan əvvəl, 2013-cü ilin yanvarından Rabitə və Kütləvi Kommunikasiyalar Nazirliyinin beynəlxalq əlaqələr departamentinə rəhbərlik edib, uzun müddət "Ericsson", "Nokia Networks", "Nokia-Siemens Networks" və "Huawei" də daxil olmaqla, müxtəlif telekommunikasiya və informasiya texnologiyaları şirkətlərində çalışıb.

Qeyd edək ki, soydaşımız Rəşid İsmayılov 1965-ci il noyabrın 2-də Bakıda anadan olub. SSRİ Xarici İşlər Nazirliyinin internat məktəbini, Lomonosov adına Moskva Dövlət Universitetinin tarix fakültəsini, həmçinin Moskva Dövlət Maşınqayırma Universitetini bitirib. Bir çox xarici dil bilir.

## İsrail qoşunlarını Qəzzadan çıxarır



İsrail və Fələstin daha bir 72 saatlıq atəşkəs barədə razılığa gəliblər. AzərTAc Euronews telekanalına istinadla xəbər verir ki, bu təşəbbüslə Misir çıxış edib.

İsrail tərəfi bəyan edib ki, yaxın vaxtlarda Qəzzada yeraltı tunellərin məhv edilməsi başa çatacaq və bundan sonra Fələstin anklavında qoşun saxlamağa ehtiyac qalmayacaq. Bu şərtlə ki, HƏMAS yaraqlıları da barışığa əməl etsinlər.

Fələstin mənbələri məlumat verir ki, əməliyyatların başladığı 8 iyuldan avqustun 4-dək Qəzza zolağında 1800-dən çox insan həlak olub, 9 minədək insan yaralanıb. İsrail tərəfinin itkiləri isə əsasən hərbi qulluqçulardan ibarət olan 64 nəfərdir. Həmin müddətdə İsrail ordusu Qəzza ərazisində 4800 obyektə zərbə endirib.

## Ukraynanın qırıcı təyyarəsi vuruldu



Ukraynanın şərqində rusiyameylli separatçılar "Buk" zenit-raket sistemindən Ukrayna hava qüvvələrinə məxsus "MiQ-29" döyüş təyyarəsini vurublar.

ANS PRESS-in məlumatına görə, bu haqda Antiterror qrupunun spikeri Vladislav Seleznyov xəbər verib.

Yenakiyevo rayonunda dinc sakinlər arasında itkilərin qarşını almaq məqsədilə pilot təyyarəni yaşayış məntəqəsindən kənara aparıb. Qırıcı təyyarə Qorlovkanın şimal-qərbində düşüb.

"Hazırda xilasetmə-axtarış əməliyyatı həyata keçirilir", - deyə Seleznyov bildirib.

Onun sözlərinə görə, pilot özünü vaxtında xilas edib.

## Girov götürülmüş azərbaycanlıların ailəsi Vladimir Putinə müraciət edib



Kəlbəcər rayonu ərazisində Ermənistan silahlı qüvvələri tərəfindən girov götürülmüş Rusiya vətəndaşı Dilqəm Əsgərovun həyat yoldaşı Firuzə Əsgərova, oğlu Kürdoğlu Əsgərov və Şahbaz Quliyevin Rusiya vətəndaşı olan həyat yoldaşı Albina Veselova Rusiya Federasiyasının prezidenti Vladimir Putinə bir daha müraciət ediblər. Bu barədə Trend-ə Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

Müraciətdə iki ölkənin prezidentlərinin Soçi görüşündə bu problemin, Dilqəm Əsgərov və Şahbaz Quliyevin girovluqdan azad olunmasını və Həsən Həsənovun meyidinin qaytarılmasını müzakirə və həll etmələrini xahiş ediblər.

## Ermənistanda insanlar "müharibəyə yox!" deyərək küçələrə axışdı



Yerevanda "Müharibəyə yox!" şüarı altında vətəndaş təşəbbüsü yürüşü keçirilib. Bu barədə Trend Ermənistan KİV-nə istinadən xəbər verir. Yürüş iştirakçıları Respublika meydanından Xarici İşlər Nazirliyinin binasına, sonra Rusiya səfirliyinə və daha sonra Azadlıq meydanına doğru hərəkət ediblər. Aksiyanın təşkilatçıları hesab edirlər ki, Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində yaranmış gərginlik üçün Ermənistana rəhbərlik edən və regiona təsiri olan rejim məsuliyyət daşıyır. Əllərində Ermənistan və Avropa Birliyinin bayraqları olan yürüş iştirakçıları bildiriblər: "Bu, bizim müharibə deyil, rejimin müharibəsidir".

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

AZƏRBAYCAN ORDUSU

# Azərbaycan Ordusu erməni silahlı birləşmələrinin istənilən hücum və təxribatlarının qarşısını alır, düşmənə layiqincə cavab verir

## Müdafiə Nazirliyinin təşkilatçılığı ilə bir qrup QHT və KİV nümayəndəsi cəbhə bölgəsinə səfər edib





***Səfər çərçivəsində qeyri-hökumət təşkilatlarının nümayəndələri və jurnalistlər cəbhənin Füzuli rayonu istiqamətindəki "N" hərbi hissəsində şəxsi heyətlə görüşüblər.***

Əsgər, gizir və zabitlərin qarşısında çıxış edənlər ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlərdən danışıb, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin Azərbaycan Ordusuna göstərdiyi diqqət və qayğıdan söz açıblar.

Bildirilib ki, Silahlı Qüvvələrimizin potensialının artırılmasının əsasında dövlətimizin və onun rəhbərliyinin göstərdiyi diqqət və qayğı dayanır. Hərbi büdcəmiz ildən-ilə artır, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Bu gün Azərbaycan Silahlı Qüvvələri Cənubi Qafqazın ən güclü ordusudur. Ordumuz müasir silah və hərbi texnika ilə tam təchiz olunub. Qətiyyətlə vurğulanıb ki, Azərbaycan Ordusu düşmənin istənilən hücum və təxribatlarının qarşısını alır, erməni silahlı birləşmələrinə layiqincə cavab verir.

Qeyd edilib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin cəbhə xəttinə son səfəri və burada hərbçilərlə görüşündə nitqi əsgər və zabitlərimizdə böyük ruh yüksəkliyi yaradıb.

Nümayəndə heyəti Füzuli rayonu ərazisində yerləşən hərbi hospitalda yaradılan şəraitlə də tanış olub.

Sonra media təmsilçiləri və ictimaiyyət nümayəndələri avqustun 2-də Yeni Xocavənd qəsəbəsində düşmənin diversiya qrupunun həmləsini dəf edərkən qəhrəmanlıqla həlak olmuş çavuş Sənan Quliyevin yas mərasimində iştirak ediblər. Qürurverici məqam isə həmin qəsəbədə yol boyu Azərbaycanın dövlət bayraqlarının asılması və ailə üzvlərinin S.Quliyevin qəhrəmanlığı ilə fəxr etməsi olub.

Xocavənd Rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov şəhidin qəhrəmanlığı haqqında danışıb. Bildirib ki, bu, S.Quliyevin ailəsində ilk şəhid deyil. Sənanın əmisi də erməni işğalçıları ilə döyüşdə şəhid olub. Ümumiyyətlə, bu nəslin nümayəndələri erməni işğalçılarına qarşı gedən döyüşlərdə qəhrəmanlıqlar göstəriblər.

İcra hakimiyyətinin başçısı işğal altındakı ərazilərimizin azad ediləcəyi günün uzaqda olmadığını xüsusi vurğulayıb.

Mərhum çavuşumuzun babası Əlqəmə Quliyev şəhid ailələrinə, qaçqın və məcburi köçkünlərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlığını bildirib. O, bu yaşında döyüşə getməyə hazır olduğunu deyib.

Daha sonra media təmsilçiləri Xocavənd istiqamətindəki hərbi hissələrdən birinə gediblər. Jurnalistlər səngərdə əsgər, gizir və zabitlərlə görüşüb, döyüş növbəsi çəkən hərbçilərimizin xidməti ilə yaxından tanış olub, düşmənin mövqelərini müşahidə ediblər.

Hərbi hissənin yüksək rütbəli zabiti bildirib ki, mövqelərimiz hər gün Ermənistan silahlı birləşmələri tərəfindən atəşə tutulur. Lakin son günlər bu, daha intensiv xarakter alıb. Ermənistan silahlı qüvvələrinin təxribat xarakterli hərəkətləri həmişə olub, yenə də var. Düşmən tərəfdə çox böyük qorxu hiss olunmağa başlayıb. İndi gecə düşən kimi ermənilər vahiməyə düşür və kortəbii şəkildə ətrafa atəş açmağa başlayırlar.

Zabit qeyd edib ki, hazırda hərbi hissədə şəxsi heyətin sayıqlığı, döyüş hazırlığı yüksək səviyyədədir. Hamı döyüşə canatır. Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin diqqət və qayğısı, eləcə də düşmənə qarşı döyüşlərdə fərqlənənlərin Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən mükafatlandırılması bizə böyük stimul verib.

Təmas xəttinin ön postlarında gecə-gündüz növbə çəkən əsgərlər, gizirlər və zabitlər düşməndən qətiyyən çəkinmədiklərini, işğal altında olan ərazilərimizin azad edilməsi uğrunda əməliyyatların başlanacağı günü səbirsizliklə gözlədiklərini bildiriblər.

Azərbaycan Silahlı Qüvvələrinin Beyləqan hərbi birliyinin yüksək vəzifəli zabiti isə deyib ki, bəzi kütləvi informasiya vasitələrində Füzuli və Ağdam rayonlarında guya bəzi kəndlərdə əhalinin evlərini tərk etdiyi barədə yayılan məlumatlar qətiyyən həqiqətə uyğun deyil. Cəbhədə baş verən son proseslər Azərbaycanda ordu ilə xalq arasında birliyin yüksək səviyyədə olduğunu bir daha göstərdi. Bütün ölkədə olduğu kimi, burada da ordumuza böyük inam var. Ağdam, Xocavənd, Füzuli və Beyləqanda əhali əvvəllər necə yaşayır, işləyir və qəhrəmancasına düşmənlə üz-üzə dururdusa, indi də elədir. Azərbaycanın ordu bölmələri bütün parametrlərə görə Ermənistan silahlı birləşmələrindən üstündür və işğal olunmuş torpaqları tezliklə azad etməyə hazırdır.

Ön cəbhədə olan hərbçilərimizlə söhbət zamanı QHT və KİV nümayəndələri bir daha əmin oldular ki, igid əsgərlərimiz düşmənin istənilən həmləsinin qarşısını alır, Vətənin keşiyində ayıq-sayıq dayanırlar.

**AzərTAc**

# Qan yaddaşımız

***Unutmamalıyıq ki, 1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:***

***Dağlıq Qarabağ** (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.*
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri** (17 fevral 1990) - 19 kv.km.*
***Laçın** (17 may 1992-ci il) - 1835 kv.km.*
***Kəlbəcər** (3-4 aprel 1993-cü il) - 1936 kv.km.*
***Ağdam** (23 iyul 1993-cü il) - 1094 kv.km.*
***Cəbrayıl** (18 avqust 1993-cü il) - 1059 kv.km.*
***Füzuli** (23 avqust 1993-cü il) - 1386 kv.km.*
***Qubadlı** (31 avqust 1993-cü il) - 802 kv.km.*
***Zəngilan** (30 oktyabr 1993-cü il) - 707 kv.km.*

**Bu torpaqların azad edilməsi bizim müqəddəs borcumuzdur!**

# İdman

## Yunan-Roma güləşçilərimiz dünya çempionu olublar



Gənclərdən ibarət yunan-Roma güləşi üzrə Azərbaycan millisi dünya çempionatını birinci pillədə başa vurub. AzərTAc xəbər verir ki, yunan-Roma güləşçilərimiz ümumilikdə 5 qızıl və 1 gümüş medal qazanmaqla Azərbaycanın güləş tarixində yeni səhifə yazıblar. Səkkiz çəki dərəcəsindən altısında finala yüksələn təmsilçilərimiz komandanın gələcəyinin etibarlı əllərdə olduğunu sübut ediblər. Yekunda 59 xal toplayan yığmamız komanda hesabında dünya çempionatını ilk sırada tamamlayıb. İkinci yerdə Gürcüstan, üçüncü sırada Türkiyə yığması qərarlaşıb.

## Azərbaycan şahmatçıları Tromse Olimpiadasında liderliyi əldə saxlayırlar




Norveçin Tromse şəhərində Dünya Şahmat Olimpiadası davam edir. AzərTAc xəbər verir ki, beşinci turda kişi şahmatçılarımızın rəqibləri serblər olub. Bu tur 2:2 nəticələnib. Kişilərin yarışlarında beş turdan sonra Azərbaycan, Almaniya, Qazaxıstan, Bolqarıstan, Kuba, Özbəkistan və Gürcüstan yığmalarının hərəsi 9 xal toplayıb. 17 komanda liderlərdən bir xal geridir. Qadınların yarışlarında beş turdan sonra hərəyə 10 xal toplamış Çin, Macarıstan və Rusiya yığmaları liderdir.

Altıncı turda Azərbaycanın kişilərdən ibarət yığma komandası Gürcüstan şahmatçıları ilə qarşılaşacaq.

## Futbol klublarımızın pley-off mərhələsindəki rəqibləri müəyyənləşib



Avqustun 8-də İsveçrənin Nyon şəhərində futbol üzrə UEFA Avropa Liqası yarışlarının pley-off mərhələsinin püşkatma mərasimi keçirilib. AzərTAc xəbər verir ki, turnirdə mübarizə aparan iki Azərbaycan təmsilçisi - son ölkə çempionu Ağdamın "Qarabağ" və ölkə kubokunun qalibi Bakının "Neftçi" komandalarının rəqibləri müəyyənləşib. Püşkün nəticəsinə əsasən, "Qarabağ" Hollandiyanın "Tvente" kollektivi ilə, "Neftçi" isə Serbiyanın "Partizan" komandası ilə qarşılaşacaq. Pley-off mərhələsinin oyunları avqustun 21-də və 28-də keçiriləcək.

## Azərbaycan üzgüçüsü Avropa çempionu olub



Hollandiyanın Eyndhoven şəhərində keçirilən üzgüçülük üzrə Avropa çempionatında Azərbaycan milli komandasının üzvləri Dmitriy Saley və Eldar Əfəndiyev 200 metr məsafəyə kompleks üzməkdə yüksək nəticə göstərərək finala vəsiqə qazanıblar.

Azərbaycan Milli Paraolimpiya Komitəsindən AzərTAc-a bildiriblər ki, final mərhələsində üzgüçümüz Dmitriy Saley 2 dəqiqə 13 saniyə nəticə göstərərək qızıl medala sahib olub.

## İdman gimnastikası, akrobatika və tamblinq üzrə yarışa yekun vurulub



Milli Gimnastika Arenasında idman gimnastikası, akrobatika və tamblinq üzrə birgə yarışa yekun vurulub. AzərTAc xəbər verir ki, yarışın ikinci günündə böyüklərin idman gimnastikası və tamblinq üzrə çoxnövçülük yarışlarının qalibləri müəyyən edilib. İdman gimnastikası üzrə yarışda Oleq Stepko qızıl, Pyotr Paxnyuk gümüş, Ruslan Namazov isə bürünc medala sahib olublar. Tamblinq üzrə yarışda isə Mixail Malkin, Hafiz Rzayev və Səid Səlimov müvafiq olaraq birinci, ikinci və üçüncü yerləri tutublar.

Ümumilikdə yarışlara Bakı Gimnastika Məktəbini, Respublika Olimpiya İdman Liseyini, Nizami Rayon İdman Məktəbini və "Neftçi" Cəmiyyətini təmsil edən 80 idmançı qatılıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

# Xarici hərbi xronika

## Özüyeriyən raket kompleksi

İsrailin silahlanmasında özüyeriyən Spike-Maqash raket kompleksi köhnə Amerika M485A (Maqash-5) döyüş maşını əsasında hazırlanıb və 12 konteynerli buraxıcı qurğulu idarəolunan Rafael Tamiz raket kompleksi ilə təchiz olunub, Raketin çəkisi 70 kiloqram və onun atəş uzaqlığı 25 kilometr təşkil edir. Döyüş maşınının üzərində raketi idarə etmək üçün hərəkət edən sistemlər də quraşdırılıb. Verilən məlumata görə, uzun müddət bu kompleks məxfi saxlanılıb və 2013-cü ilin yazında Suriya sərhədində İsrail qoşunlarının yerləşdirilməsi zamanı istifadə edilib.

## MİLEX-2014 sərgisi

Bu yaxınlarda Minsk şəhərində beynəlxalq MİLEX-2014 silahlanma və hərbi texnika üzrə sərgi keçirilib. Sərgidə 23 ölkənin 140 müəssisəsi iştirak edib. Buraya toplaşan ölkələrin nümayəndələri istehsal etdikləri yeni texnika və silahlarını alıcılara təqdim ediblər. Belarus Respublikasının Dövlət Hərbi Sənaye Komitəsinin sədri Sergey Qurulyov bildirib ki, MİLEX-2012 sərgisində ümumilikdə 700 milyon dollar vəsait həcmində müqavilə bağlanıb. Bu sərgidə də yeni müqavilələrin bağlanacağı gözlənilir. Sərgidə əsasən Rusiya və Belarus müəssisələrinin məhsulları nümayiş etdirilib.

## Hərbi Dəniz Donanması 70 ədəd təyyarə və vertolyot əldə edib

Rusiya Müdafiə nazirinin müavini Yuri Borisovun məlumatına görə, birinci yarımillikdə hərbi nümayəndəliyə 70-dən çox hərbi təyyarə və vertolyot əldə edilib. O, bu il Rusiyanın Hərbi Hava Qüvvələri üçün 90-dan çox təyyarə, həmçinin 15 ədəd Su-34 qırıcı bombardmançılarının əldə olunacağını da qeyd edib. Bu ilin əvvəlində hərbçilərin istifadəsinə 34 təyyarə, 38 vertolyot, 5 radiolokasiya sistemi, 5 zenit-raket kompleksi və 200-ə qədər aviasiya təminat vasitələri və texniki-aviasiya əmlakı verildiyini bildirib. Bundan başqa 9,5 min ədəd aviasiya texnikası alınaraq sınaqları həyata keçirilib. Onlarla birlikdə altı Mi-35M, iki Mi-26 və dörd Mi-28H "Gecə gözətçisi" vertolyotu da əldə edilib.

**Hazırladı:**
**Svetlana NƏSİBQIZI**





# Hərbi dənizçilərin asudə vaxtı mənalı keçir

***Mürəkkəb şəraitdə çətin və məsuliyyətli döyüş tapşırıqlarını yerinə yetirən hərbi qulluqçuların asudə vaxtlarını səmərəli keçirmələri üçün bu gün ordumuzun qoşun növlərində, hərbi hissə və birləşmələrində məqsədyönlü tədbirlər keçirilir. Tez-tez ictimaiyyət nümayəndələri, sənət adamları, müğənnilər və başqaları hərbi hissələrə dəvət edilir və şəxsi heyətlə maraqlı görüşlər keçirilir.***

Hərbi Dəniz Qüvvələrində də gənc matros heyətinin asudə vaxtını mənalı təşkil etmək üçün bir-birinin ardınca maraqlı tədbirlərin keçirilməsi artıq ənənəyə çevrilib. Bu dəfə hamının yaxşı tanıdığı istedadlı meyxana ustaları Ramiz Xızılı, İntiqam və Ehtiram Rüstəmov qardaşları hərbi dənizçilərimizin qonağı oldular.

Sənətçilərin çıxışı başlanmazdan öncə torpaqlarımızın müdafiəsi uğrunda son hərbi əməliyyatlar zamanı şəhid olmuş döyüşçülərin xatirəsi hörmətlə anıldı. Polkovnik-leytenant Hikmət Babayev tədbir iştirakçıları qarşısında çıxış edərək düşmənin kəşfiyyat-diversiya qruplarının hücumunun qarşısının alınmasında Azərbaycan Ordusunun əsgər və zabitlərinin göstərdiyi hünər və şücaətlərdən danışdı. Natiq qeyd etdi ki, şəhid olan döyüşçülərin xatirəsinə bu gün dövlətimizin və Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən böyük ehtiram göstərilir, onların qəhrəmanlıqlarına layiqli qiymət verilir.

Sonra meydan sənətçilərə verildi. Meyxana ustaları Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun və başqa igid Vətən oğullarının əfsanəvi şücaətinə həsr etdikləri "Görüşərik Qarabağda inşallah", "Şəhidlərimizin qanı yerdə qalmasın" və digər vətənpərvərlik mövzusundakı çıxışları ilə matrosların uzun-uzadı alqışlarına səbəb oldular.

Gənc matros Şahin Süleymanovun sazda könüloxşayan "Səni qəmli görəndə", "Sevgilimə könül açdım", "Ruhani" və s. ifaları da tədbir iştirakçıları tərəfindən rəğbətlə qarşılandı.

Sonda 2-ci dərəcəli kapitan Akif Qasımov çıxış edərək maraqlı görüşə görə qonaqlara öz minnətdarlığını bildirdi və Hərbi Dəniz Qüvvələrinin komandanlığı adından onlara fəxri fərman təqdim etdi.

**"Azərbaycan Ordusu"**

**Məsul katib**
mayor
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavinləri: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, “Qızıl Şərq” hərbi şəhərciyi

**Növbətçi**
Əbülfət QASIMOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. “Azərbaycan Ordusu” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 262
Nüsxə 4570